# Ədəbiyyatda hiss və düşüncə əl-ələ verməlidir

## Könül Həsənqulu: “Əksər Azərbaycan oxucusunu ədəbiyyat yox, müəllif maraqlandırır”

**Könül Həsənqulu Azərbaycan Dillər Universitetinin tərcümə fakültəsinin məzunu, Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutunun doktorantıdır. “O zəminin sahili...” adlı şeirlər kitabının müəllifidir. AYB-nin üzvü, prezident təqaüdçüsüdür. Hazırda ali təhsil müəssisəsində müəllimə işləyir, dünya ədəbiyyatından dilimizə bədii tərcümələr edir.**



**- Azərbaycan ədəbi reallığında xanım yazar olmağın çətinliyi nədədir?**

- Qadın müəllif yazarkən bədii üsullardan istifadə etməklə yanaşı, səmimiliyi də qorumağı bacarmalıdır. Fəqət, Azərbaycanda və zənnimcə, digər Qafqaz ölkələrində də oxucu təfəkkürü problemi yaşanmaqdadır. Belə ki, bu qisim oxucuların diqqəti yazıçının və ya şairin mətnlərində bədii estetikliyə və mövzuya deyil, mütləq şəkildə avtobioqrafik faktlar axtarmağa cəmləşir. Məsələn, mənim yazı mühərrikim - təxəyyülümdür. Təsəvvür edin ki, mən təxəyyülümdə bir obraz yaradıram, lakin ona mətndə yer verəndə artıq o obrazın da “namusunu çəkməliyəm”. Bu, həm gülüncdür, həm də acınacaqlı... Əksər Azərbaycan oxucusunu ədəbiyyat yox, müəllif maraqlandırır. Belə çıxır ki, bir saç ustasının yazdığı avtobioqrafik kitabın ölkəmizdə “bestseller” olmaq şansı daha böyükdür.

**- Poeziyada elə bilirəm nəsrdən fərqli olaraq özündən qaçmaq tam mənada mümkün deyil. Siz necə düşünürsünüz?**

- Məncə, əksinə, təxəyyüldən uzaqlaşa bilmirəm. Avtobioqrafik çalarlar şeirlərimin az qismində ola-olmaya. Rəssamlıqda da belədir; var baxdıqlarını kölgə ölçülərinə qədər tam dəqiqliyi ilə çəkməyə can atan və sənətin zirvəsinə ucalmağı bunda görən rəssamlar, bir də var fantaziyasında canlandırdıqlarını, hətta yer üzünə yad görüntüləri kətana köçürənlər.

**- Uzun müddət şeirlər yazmısan, ancaq çap etdirməmisən. Həmin müddət sənə nə qazandırıb, yaxud əksinə, nələrə gecikdiyini düşünürsən?**

- Zamanın hökmünə inanıram. Bəlkə də belə lazım idi. O illər nə sənətdə, nə də həyatda heç nə əldə etməmişəm, buna can atmırdım. Həyatı dövrlərə bölsək, o illəri “həyati-fasilə” adlandırardım.

**- Könül xanım, şeirlərinizdə daha çox rəssamlıq elementlərinin olması, mənzərə yaratmaq istəyi hansı ehtiyacdan doğur?**

- Təbiətdən uzaq olmağım məni məyus edir. Bir insan kimi bu təmasa ehtiyac duyuram. Etiraf edim ki, paytaxtdan kənarda da uzun müddət yaşaya bilmərəm, amma bu da elə bilin, girov qoyulmuş ömürdür. Bəlkə də mən çəkmək istədiklərimi yazıram.

**- Şeirin senton, qurama, yoxsa həyati, yaşanmış olması sizinçün nə qədər vacibdir?**

- Bu göstəricilər məni düşündürmür. Şeirdə müəllif mövzu və struktur ilə elə “oynaya” bilər ki, bunlar arxa plana keçər. “Qardaşım ağaclar, bacım çiçəklər” - Vaqif Bayatlı Odərin bu misraları nə qədər həyatidir, deyə bilmərəm, sadəcə, valeh olmaqdan başqa insanın heç bir şansı qalmır.

**- Sevdiyiniz şairləri birləşdirən cəhət nədir, yoxsa onlar fərqlidirlər bir-birlərindən?**

- Əgər rəssam gözüylə baxsaq, o müəlliflərin poeziyada hərəsinin öz rəngləri var. Sadəcə, çalarlarıyla bir-birindən fərqlənirlər. Məsələn, mənə görə Vaqif Bayatlı Odərin şeirləri yaşıl rəngdədir, amma bu yaşıl gah tündləşir, gah da körpə yarpaq rəngini alır. Kortasarın şeirləri sarı və narıncı rənglərdədir; böyük şəhərin gecələr yanan fənərləri kimi. Lorkanın şeirləri al qırmızı və qaralmış qan rəngindədir, o, poetik nümunələr sonra yenidən durula bilir - həyat sevgisi ilə ölüm xofu arasındakı təzad kimi. Bu palitrada sevdiyim şairlərin oxşarlıqları az olur və ya deyək ki, heç olmur, ancaq onlar öz müxtəliflikləriylə poeziyada ortaq bir tablo yaratmış olurlar. Sevdiyim şairlərlə sevdiyim nasirlər arasında oxşarlıqlar var. Bu paralelliyə misal olaraq birini söyləyim: S.Valyexo və F.Kafka. Bu imzaları bir-birindən ayıran təkcə poeziya və proza adlı cığırlardır. Nəticədə isə oxucu hər ikisinin yaradıcılığından eyni effekti alır.

**- Qəribə seçimdir...**

- Valyexonu Kafkayla yaxınlaşdıran daha çox kədəridir və bu kədərin beşiyi hər ikisində də böyüdükləri mühit, daha dəqiq desək doğmalarıdır. Kafka daha çox ata sevgisizliyinin məyusluğunu yaşayırdısa, çoxuşaqlı ailədə böyüyən Valyexo bütün doğmalarından qurtulmaq istəyirdi. O, hətta intihara da cəhd edib, sonra isə xilas yolunu Parisə köçməkdə tapıb. Esselərinin birində deyir: “Anamı və bacımı mən öz silahımla öldürdüm. İndi bütün doğmalarım ölüb və bununla da nəhayət mən doğulmuş oldum. Cənablar, mən o qədər körpəyəm ki, saniyələri parçalasanız da mənim yaşımı müəyyən edə bilməzsiniz. Əgər indi birisi gəlib üzümə baxsa və mənə ahıl yaşda olduğumu söyləsə, inanmayın! O, gözünün içinə qədər yalan demiş olar! Mən hər kəs öləndən sonra doğulmuşam” Valyexonun kədəri - sonbeşiklərin kədəridir. Zənnimcə, etiraf etməsələr də bütün sonbeşiklər eyni düşüncə qatarındadırlar.

**- Könül, səni yazmağa vadar edən, ədəbiyyatdan yaxa qurtarmağın mümkünsüzlüyüdür, yoxsa ədəbiyyatın gücünə inam?**

- Ədəbiyyatdan yaxa qurtarmağa çalışmıram, ondan gələn ziyanları isə cəmiyyətin tərəqqisizliyinə bağlayıram və ədəbiyyatı kimsənin düşüncəsinə hesablayıb tərk etməyəcəm. Fərq etmir, doğmalar olsun, ya gələcək ailə. Ədəbiyyatın gücünə güvəndiyim üçün hər kəsdən asanlıqla üz çevirib, ona arxalanıram.

**- Sizcə, bu gün ədəbiyyata ictimai rəyin biganəliyinin kökündə nə dayanır?**

- İnsanların özlərinə münasibəti. Bu münasibət sürətlə məişət səviyyəsinə enməkdədir. İnsanlar maddi istəklərdən qopmaya qədər daxili zənginliyə varmayacaqlar. Ədəbiyyat isə özündə insani zənginliyi daşıyır. Ədəbiyyatla üz-üzə dayanmaq insanın öz təfəkkürü ilə üz-üzə dayanmasıdır. Bu toqquşmanın nəticəsindəki qəzalar göz önündədir.

**- Müasirlərinin əsərlərində səni qane edən və etməyən nədir?**

- Müasirlərim çoxdur, ancaq hesab edirəm ki, söhbət ciddi ədəbi nümunələri ərsəyə gətirən müasirlərdən gedir. Bu baxımdan həmişə izlədiyim konkret müəlliflər var; onların arasında elələri var ki, istənilən yeni əsərləri - fərq etmir şeirləri, esseləri, hekayələri ilə məni sözün yaxşı mənasında təəccübləndirirlər. Fəqət elə istedadına güvəndiyim müəlliflər də var ki, onlar mənim gözləntilərimi doğrultmurlar. Mən onlardan öz istedadına söykənərək daha maraqlı şeirlər və ya hekayələr yazmalarını gözlədiyim halda “sevgi etirafı”, “sentimentallıq” havasında mətnlər görürəm. Bu hislərin əsarətindən çıxmağın vaxtı çoxdan çatıb. Poeziya nə qədər hislərlə dolu olmağı sevsə də, eyni zamanda peşəkar yanaşma tələb edir. Ədəbiyyatda hiss və düşüncə əl-ələ verməlidir. Yox əgər hiss düşüncəyə əl uzatmadısa, o şeirlər cilalanmamış gözəl daş kimi sandıqda qalacaq. Bu cür hislərin xammal kimi təqdim olunması məni qane etmir.

**- Bugünkü qadın şeiriylə sovet dövründə xanım yazarların qələmə aldığı poeziya nümunələri arasında hansı fərqlər var?**

- Azərbaycan ədəbiyyatında çox nadir hallarda məni təəccübləndirəcək qadın şeirlərinə rast gəlirəm. Mənə görə indiki qadın şeirlərinin əksəriyyəti mahiyyətcə sovet dövrünün poeziyasından seçilmir. Qadınlar əsasən sevgidən yazır ki, bu mənim diqqətimi çəkmir. Səbəbi sadədir: sevgi mövzusu o qədər işlənib ki, indi diqqət çəkmək üçün özünə yeni baxış, yeni yanaşma, hətta nə qədər absurd səslənsə də, deyək ki, yeni istedad tələb edir. Bunun öhdəsindən gəlmək çətindir. Yeni mövzular onsuz da yeniliyinə görə fərqlidir, sevgi mövzusu isə... Çətindir. Zərgər ustalığı tələb edir. Eləcə də vətən mövzusu və s. bu kimi əbədi mövzular.

**- Şeirlərinizdə özünüzü nə qədər ifadə edə bilirsiniz və sizin üçün nələri ifadə etmək çətindir?**

- Mən öz yaradıcılığıma dair bir faktı anladım ki, gözümdən və həyatımdan uzaq nə varsa, onlar mənim ən uğurlu şeirlərimin mövzusuna çevrilir.

**- Roman da yazırsınız. Yazı prosesində şairlik istedadı önə çıxır, yoxsa sırf prozaik təfəkkür?**

- Özüm bunu analiz edə bilmirəm. Məncə, bunu kənardan kimsə oxuyub təhlil etsə daha dəqiq olar. Ancaq mənim bir qəhrəmanım şairdir. Şair qəhrəmanla özümü daha rahat ifadə edə bilirəm deyə o obraza romanda nisbətən geniş yer ayırmışam. Hesab edirəm ki, əsərdə ən səmimi obraz məhz odur.

**- Bir neçə xarici dil bilirsiniz, dünya ədəbiyyatını mütaliə edirsiniz. Sizcə, ədəbiyyatımız dünya nəsrindən və ya şeirindən irəlidədir, yoxsa geridə?**

- Düşünürəm ki, bu gün ədəbiyyatımız dünya ədəbiyyatına ancaq poeziyası ilə yaxınlaşa bilər. Təəssüf ki, bu işartılar nəsr əsərlərində poeziyadakı kimi qabarıq görünmür. Oxuduğum nəsr əsərlərinin az qismində mükəmməl məzmunla mükəmməl formanın vəhdətini görürəm.

**Fərid Hüseyn**